# Azərbaycan – Fransa əlaqələri yeni müstəvidə inkişaf edir



***Prezident İlham Əliyev iyulun 14-də Fransa Respublikasının milli bayramı münasibətilə Prezident Emmanuel Makrona ünvanladığı təbrik məktubunda əminlik ifadə edib ki, Fransa bundan sonra da regionda sülh proseslərinə lazımi dəstək verəcək. Həmin gün bu ölkənin milli bayramı münasibətilə Bakıda rəsmi qəbul da təşkil edilib. Mərasimdə bildirilib ki, Azərbaycanla Fransa arasında əlaqələr müxtəlif sahələrdə inkişaf edib, hökumətlərarası münasibətlər yüksək səviyyədədir, prezidentlərimiz arasında intensiv dialoq var. Münasibətlərimiz qarşılıqlı etimada əsaslanır və çiçəklənən, sabit gələcəyi var.***

Azərbaycan – Fransa münasibətləri çoxəsrlik tarixə və ənənələrə malikdir. AXC-nin 23 aylıq mövcudluğu zamanında iki ölkə arasında münasibətlərin yeni mərhələsi yaranıb. Azərbaycan nümayəndə heyətinin iştirak etdiyi Paris Sülh Konfransında Fransa Azərbaycanın müstəqilliyini de-fakto tanıyıb. Azərbaycan nümayəndə heyəti bu konfransda öz missiyasını uğurla başa vurduqdan sonra parlament bir sıra ölkələrlə yanaşı, Fransanın paytaxtında da fəaliyyət göstərəcək diplomatik nümayəndəliyin yaradılması haqqında qanun qəbul edib. Bununla yanaşı, AXC-nin Avropada ali təhsil almaq üçün göndərdiyi tələbələrin bir hissəsi Fransa universitetlərində təhsil alıb. Maraqlı məqamlardan biri də odur ki, 28 aprel 1920-ci ildən sonra bir sıra Azərbaycan ziyalıları, dövlət xadimləri repressiyalardan qorunmaq, Azərbaycan naminə fəaliyyətlərini, fədakarlıqlarını davam etdirmək üçün məhz Fransanı özlərinə ikinci vətən seçiblər. Onların sırasında Əlimərdan bəy Topçubaşov, Ceyhun bəy Hacıbəyli kimi dəyərli Vətən övladlarımız da vardı ki, bu gün də onların məzarları Fransadadır.

Ötən il 100 yaşı tamam olan, "Xarqo" ləqəbi ilə tanınmış partizan Əhmədiyyə Cəbrayılovun həyat yolu, İkinci Dünya müharibəsində antifaşist müqavimət hərəkatında nümayiş etdirdiyi qəhrəmanlıq Azərbaycan – Fransa əlaqələrinə böyük töhfə sayılır. O öz igidliyi ilə Fransada tarix yazıb və dünyanın nəhəng liderlərindən sayılan Şarl de Qoll tərəfindən bu ölkənin "Hərbi ordeni" ilə mükafatlandırılıb. 1966-cı ildə Şarl de Qoll SSRİ-yə səfəri zamanı Əhmədiyyə Cəbrayılovu görmək istədiyini bildirib və onu Moskvaya çağırtdırıb.

Azərbaycanın indiki müstəqilliyi dövründə iki ölkə arasında diplomatik əlaqələr 1992-ci il fevral ayının 21-də qurulub. Dövlətlərarası diplomatik əlaqələrimizin artıq 30 illik tarixi var. 16 mart 1992-ci ildə Fransanın Azərbaycanda səfirliyi, 20 oktyabr 1994-cü ildə isə Azərbaycanın Fransada səfirliyi açılıb. İki ölkə arasında münasibətlərin yüksək səviyyəyə qaldırılmasında ulu öndər Heydər Əliyevin misilsiz rolu olub. Azərbaycana ikinci rəhbərliyi dövründə ümummilli lider ilk xarici səfərini məhz Fransaya edib və həmin ölkənin Prezidenti Fransua Mitteranla görüşüb, hər iki ölkə və xalqın milli maraqlarına cavab verəcək sənədlərə imza atıb. Məhz bu səfərin nəticəsi olaraq, Fransanın məşhur neft şirkəti olan "Total" danışıqlar prosesinə cəlb edilib və tarixi "Əsrin müqaviləsi"nin iştirakçılarından olub.

Azərbaycan – Fransa münasibətlərində dünya nəhənglərindən sayılan mərhum Prezident Jak Şirakın müstəsna fəaliyyəti qeyd edilməlidir. İstər ulu öndərin ölkəyə rəhbərliyi dönəmində, istərsə də Prezident İlham Əliyevin hakimiyyəti dövründə bir neçə dəfə Jak Şirakla bir araya gəlinib, hər iki ölkə üçün önəmli addımlar atılıb. Cənab İlham Əliyev ilk səfərlərindən birini məhz Jak Şirakın dəvəti ilə Fransaya edib. Bu səfərdən cəmi 3 il sonra, 2007-ci ilin yanvarında İlham Əliyev yenidən Fransaya səfərini rəsmiləşdirib. Jak Şirak həmin görüş zamanı dövlətimizin başçısına müraciətlə deyib: "Çox məmnunam ki, Azərbaycan Prezidenti Fransaya dövlət səfəri edir". Qısa müddətdən sonra Jak Şirak Azərbaycan – Fransa münasibətlərində xidmətlərinə görə, Azərbaycanın ən ali ordeni – "Heydər Əliyev" ordeni ilə təltif olunub.

Azərbaycan Respublikasının Milli Məclisində 1997-ci ildən Azərbaycan – Fransa parlamentlərarası əlaqələr üzrə işçi qrupu fəaliyyət göstərir. 4 mart 2016-cı ildən 6 mart 2017-ci ilə qədər isə işçi qrupunun rəhbəri ölkənin birinci xanımı, Milli Məclisin deputatı, Birinci vitse-prezident Mehriban Əliyeva olub. Qeyd edək ki, Azərbaycan–Fransa münasibətlərinin inkişafında da Mehriban xanımın xidmətləri böyükdür. 2005-ci ildən Azərbaycanda Fransız İnstitutunun, 2011-ci ildən Bakı Fransız Liseyinin, 2015-ci ildən isə Azərbaycan – Fransız Universitetinin fəaliyyətə başlamasında Mehriban Əliyevanın birbaşa rolu və xidmətləri var. Fransa ilə münasibətlərin inkişafındakı xidmətlərinə görə Mehriban xanım bu ölkənin ən yüksək dövlət ordeni – "Şərəf Legionunun zabiti" ordeni ilə təltif edilib. 2011-ci il oktyabrın 7-də Fransanın o zamankı Prezidenti Nikola Sarkozi ölkəmizə rəsmi səfəri zamanı Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya həmin ordeni təqdim edib. Fransa Prezidenti mərasimdə çıxış edərək deyib: "Xanım Əliyeva dünyada bütün qadınlar üçün gözəl nümunədir".

Üç il əvvəl Birinci vitse-prezident Mehriban Əliyevanın Fransaya səfər proqramı zənginliyi, görüş və danışıqların yüksək səviyyəsi ilə yadda qalıb. Həmin səfər diplomatiya tariximizə yeni səhifə kimi yazılıb. Mehriban Əliyevanın Fransanın birinci xanımı Brijit Makron ilə görüşündə Azərbaycan – Fransa əlaqələrinin inkişafından məmnunluq ifadə edilib. Ailə-qadın, gender bərabərliyi, təhsil, ətraf mühitin qorunması və digər məsələlərlə bağlı müzakirələr aparılıb, Bakıda Fransız Liseyinin fəaliyyətinin məmnunluq doğurduğu qeyd olunub, Şərqdə hüquq elminin ilk dəfə Azərbaycanda tədris edildiyi bildirilib. Mehriban Əliyevanın rəhbərliyi ilə müxtəlif dövrlərdə Fransada keçirilən mədəniyyət tədbirlərinin əhəmiyyəti vurğulanıb. Elə Heydər Əliyev Fondunun Fransada həyata keçirdiyi humanitar layihələr də əlaqələrin inkişafına verilən böyük töhfələrdir.

Görünən budur ki, ölkəmiz tərəfindən hər zaman Fransa ilə dostluq münasibətlərinə böyük önəm verilib. Lakin Fransanın hazırkı Prezidenti Emmanuel Makronun ölkəyə rəhbərliyinin ilk dövrlərində bizdən asılı olmayan səbəblər üzündən münasibətlərimizdə müəyyən soyuqluq yaranmışdı. Əlbəttə, Fransada və bu ölkənin Senatında iki ölkə arasında münasibətlərin yaxşılaşmasını istəməyən ermənipərəst qüvvələr də var. İstər İkinci Qarabağ müharibəsi zamanı, istərsə də sonra onlar

> ***Cənubi Qafqazda bərqərar olmuş yeni geosiyasi reallıq davamlı sülh və regional iqtisadi əməkdaşlıq üçün əlverişli zəmin yaratmışdır... Beynəlxalq hüquqa söykənərək tərəfimizdən təqdim olunan beş prinsip əsasında Ermənistan ilə Azərbaycan arasında sülh müqaviləsinin hazırlanması prosesinə Fransanın dəyərli töhfə verə biləcəyinə inanırıq.***
>
> ***İlham ƏLİYEV***
> ***Azərbaycan Respublikasının Prezidenti***

erməni lobbisinin təsiri ilə bu yöndə açıq-aşkar çıxışlar ediblər. Fransanın maraqlarını və beynəlxalq hüququ heçə sayan bir qrup senator əlaqələri pisləşdirməyə yersiz cəhdlər göstərib. Amma cənab İlham Əliyevin uzaqgörən və müdrik siyasəti sayəsində Fransanın Azərbaycana münasibətində müsbət dəyişikliklər baş verməsinə nail olunub.

Ədalət naminə qeyd etmək lazımdır ki, Fransada Azərbaycanın mövqeyini dəstəkləyən, onu haqlı hesab edən, bu ölkədəki antiAzərbaycan siyasəti ilə razılaşmayanlar da var. Bu sırada Fransa Parlamentinin Azərbaycanla dostluq qrupunun vitse-prezidenti Jerom Lamberi də qeyd etmək olar. İnişil cənab Lamber başçılıq etdiyi nümayəndə heyəti ilə Azərbaycana səfər edib, burada parlamentin rəhbərliyi, digər rəsmilərlə görüşüb, Gəncəyə, insanlıq dramları yaşanmış ərazilərə baş çəkib, bir daha Azərbaycana dəstəyini ifadə edib. Həmçinin fransalı deputatların Azərbaycana dəstək ifadə etməsində Milli Məclisin Azərbaycan – Fransa parlamentlərarası dostluq qrupunun fəaliyyətini qeyd etmək lazımdır.

Biz Fransa Prezidenti Emmanuel Makronun Qarabağın dağlıq hissəsinin Azərbaycan ərazisi olmasını etiraf etdiyi barədə videogörüntünü də xatırlayırıq. Fransanın dövlət baş-çısı deyib ki, beynəlxalq hüquqa əsasən, bu ərazilər Azərbaycana məxsusdur. Makronun sözlərinə görə, həmin rayonlar Azərbaycan ərazisidir və əgər suveren xahişlər yoxdursa, bu məsələyə qarışmamaq lazımdır. Əgər belədirsə, Azərbaycan – Fransa münasibətlərini zərbə altında qoymaq cəhdləri nə üçündür? Onlar da indi dərk edirlər ki, artıq ölkəmiz antiAzərbaycan dairələrin gözündəki 90-cı illərin zəif, gücsüz, müdafiəsiz Azərbaycanı deyil. Onların qarşılarında güclü, qüdrətli Azərbaycan, böyük siyasət və dövlət lideri İlham Əliyev dayanır.

Ötən il dekabrın 15-də Fransa Prezidenti Emmanuel Makronun təşəbbüsü ilə Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında qeyri-formal görüş keçirilib və sülh danışıqları ilə bağlı məsələlər müzakirə edilib. Fransa Prezidenti öz rəsmi feysbuk hesabında Prezident İlham Əliyevlə təkbətək danışıqlarından foto paylaşaraq, ilk dəfə olaraq Azərbaycan dilində şərh verib. "Biz davamlı sülh üçün həll yolları tapmalıyıq. Dünən axşam Prezident Əliyevlə, sonra da Baş nazir Paşinyanla birgə irəliləyik", – deyə o, paylaşımında qeyd edib. Ondan bir qədər əvvəl Fransanın piyadalar əleyhinə minaların ləğv edilməsi üzrə Milli Komissiyası Bakıya səfəri zamanı bu sahədə Azərbaycanla əməkdaşlıq niyyətlərini açıqlayıb. Yeri gəlmişkən, Prezident İlham Əliyevin təbrik məktubunda ərazilərimizin minalardan təmizlənməsi prosesinə Fransanın verdiyi töhfə təqdir edilib.

Bu il fevralın 4-də Fransa Aİ Şurasının sədri kimi növbəti bir görüşün təşəbbüskarı olub. Videoformatda keçirilən həmin görüşdə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel də iştirak edib. Şarl Mişel və Emmanuel Makron birgə bəyanatla Brüsseldə təsbit olunmuş sülh gündəliyinin davam etdiyini təsdiqləyiblər. Bu, Azərbaycanın növbəti diplomatik uğuru sayılıb.

Göründüyü kimi, Azərbaycan–Fransa münasibətləri genişlənir və getdikcə daha işgüzar xarakter alır. Avropa İttifaqının, NATO-nun və BMT Təhlükəsizlik Şurasının üzvü olan Fransa dünyada liberal nizamın əsas aktorlarından biri hesab edilir və çoxtərəfli diplomatik vasitələrdə xüsusi söz payına sahibdir. Odur ki, yeni müstəvidə ölkələrimiz arasında münasibətlərin yaxşılaşdırılması heç də az önəmli amil deyil.

***Əli NƏCƏFXANLI,***
***"Xalq qəzeti"***